Azərbaycan Respublikasının
Vəkillər Kollegiyasına

Masallı rayonu Sərçuvar kənd sakini
Məmmədov Baləddin Qurban oğlu
tərəfindən

ƏRİZƏ

Masallı şəhərində yerləşən ASAN xidmət mərkəzində təşkil edilmiş ödənişsiz hüquqi xidmətə görə sizə öz təşəkkürümü bildirirəm. Mən milli qəhrəman Səfəralı Məmmədovun qardaşıyam. Şəhid ailəsi, milli qəhrəman qardaşı kimi mənə ASAN xidmət mərkəzində yüksək diqqət göstərilmiş, Bank tərəfindən mənə yaradılmış süni maneələr aradan qaldırılmışdır.

Belə ki, mən təsərrüfatla məşğul olaraq ailəmi dolandırıram. Bundan ötrü isə lazım olan pul vəsaitini Banklardan götürməklə sonradan təsərrüfatdan əldə etdiyim gəlir hesabna borclarımı ödəyirəm. Lakin son zamanlar banklar tərəfindən mənə maneələr yaradılmış, kredit reyestrində adıma əsassız olaraq borc göstərilmişdir. Halbuki həmin borcu mən illər öncə ödəmişdim. Bununla bağlı Masallı şəhərində yerləşən ASAN xidmət mərkəzində olan vəkil Nicat Islamova müraciət etdim. O, həmin kreditlə bağlı lazımi sənədəlri toplamağıma köməklik etdi və əsassız hesablanmış borcun ləğvi ilə bağlı məhkəməyə iddia ərizəsi yazdı. Vəkil Nicat İslamov bununla bağlı məhkəmə iclasında da dəfələrlə iştirak etdi.

İşə Nəsimi məhkəməsində baxan hakim Natavan Tağıyeva da işi tamamilə araşdırdı, vəkilin verdiyi vəsatətləri təmin edib, əldə edə bilmədiyimiz sənədləri də topladı və sonda bir daha sübut olundu ki, mənim heç bir borcum yoxdur. Hakim Natavan Tağıyeva ötən ilin dekabr ayının 29-da iddiamı təmin edərək borcumun olmaması ilə bağlı qətnamə qəbul etdi. Bununla da mənə qarşı yaradılmış əsassız maneələr aradan qalxdı və bundan sonra banklardan kredit götürüb təsərrüfatımı inkişaf etdirə biləcəyəm.

Bütün bunlara görə ölkə Prezidentinə, Nəsimi məhkəməsində işə baxan hakimə, ödənişsiz olaraq mənim üçün işi hazırlayıb, məhkəmə iclaslarında məni uğurla müdafiə edən vəkilə və rayonumuzda belə xidməti təşkil etdyiniz üçün Sizə öz təşəkkürümü bildirirəm.

Hörmətlə, [signature] Məmmədov Baləddin Qurban oğlu

Vəkillər Kollegiyasının
Rəyasət Heyəti
Daxil olma № 322
«06» 02 2023